# AZƏRBAYCAN FOLKLORUNDA TƏBİƏT KULTLARI

**Xəyalə Ağayeva**

*AMEA-nın Folklor İnstitutu, Bakı*
*xeyale.eliyeva.80@list.ru*

Ortaq bir kökün mənəvi dəyərlərini özündə birləşdirən türk millətləri ən qədim dövrlərdən günümüzə qədər tarixin müxtəlif sınaqlarından çıxmışlar. İlkin düşüncə olaraq dəyərlər xalqların mifik təfəkküründən başlamışdır. Sonralar folklor nümunələrinin yaranmasında mifik təfəkkürün əhəmiyyətli rolu olmuşdur.

Bütün xalqlara xas ilk və səciyyəvi olan kollektiv yaradıcılıq folklordur. Dünya xalqlarının folkloru içərisində Azərbaycan folkloru özünəməxsus yer tutur. Məzmun cəhətdən maraqlı, ideya baxımından zəngin, əsrlərin sınağından çıxmış bu nümunələr xalq zəkasının gücünü aydın şəkildə əks etdirir.

Bu əsərlər dildən-dilə, ağızdan-ağıza keçərək günümüzə qədər gəlmiş, yaşamış və zənginləşmişdir. Mürəkkəb ritual, mifoloji sistem olan kultun öyrənilməsi əhəmiyyətlidir. Azərbaycan folklorunda kultla bağlı inamları "Cansız təbiət obyektləri ilə bağlı inamlar" və "Canlı təbiət obyektləri ilə bağlı inamlar" adlı iki yerə ayıraraq tədqiq etmişlər. Cansız təbiət obyektləri ilə bağlı inamlara astral kultlarla – dağ, bitki, su kultu ilə bağlı inamlar, canlı təbiət obyektləri ilə bağlı inamlara – qurd, ilan, at, keyik, ceyran, maral, quş kultları ilə bağlı inamlar daxil edilmişdir. İlkin xaosdan yerin yaranması, yerin göydən ayrılması hadisəsi digər varlıqların (Günəş, ay, ulduzlar, dağ, dəniz və s.) meydana gəlməsinə səbəb olmuşdur. Yaradılış modelləri içərisində daha çox diqqət çəkən üçlü – göy, yer üzü və yeraltı dünya modelidir.

Astral miflər ulduzlar, planetlər, səma cisimləri haqqında bilgilər verərək, onların kultlaşmasının səbəblərini izah edir. Azərbaycan folklorunda astral kultlarla bilavasitə Ay və Günəş kultları ilə bağlı miflər geniş şəkildə öz əksini tapır.

Astral xarakter daşıyan "Şəms-Qəmər" nağılında Günəş (Qəmər) və Ay (Şəms), Göy üzü (Asiman) və ulduzlar (Ülkər, Səttar) kosmoqoniyanın atributları kimi kultlaşaraq türk dünya modelini təqdim edir. Buradan görünür ki, İslama qədər Göy üzü (Tenqri) türklərin tanrısı, Günəş, Ay və ulduzlar isə onların tapındığı sakral varlıqlar idi. "Şəms-Qəmər" nağılının mətnindəki astral cisimlərin ərəb-fars adlarını daşıması kultlaşmış astral varlıqları mifik türk kontekstindən kənara çıxarmır. Nağıl mətnindən də görünür ki, qədim türklər astral varlıqlara pərəstiş edir və bu varlıqların Ulu Tanrı tərəfindən yaradıldığına inanırdılar. Türk inanc sistemində inamlardan biri də belə idi ki, Ay və Günəşin tutulması onların qarşısına mələklərin qanad çəkmələri ilə baş verir. O mələklərin Tanrı tərəfindən göndərildiyinə inanan türklər sözügedən tutulmaları müharibə olacağına işarə kimi də yozurdular. Azərbaycan folklorunun dastan, nağıl, əfsanə, rəvayət və s. janrlarında Ay və Günəş fərqli yönləri ilə – mədəni qəhrəmanlar, bacı-qardaş, valideyn-övlad kimi öz əksini tapmışdır. Folklorumuzda Günəşin kəhər at belində təsvir olunması və kainatın yaradıcısı qismində görünməsi həm də Günəşə tapınmanın mifik köklərini təqdim edir:

Gün, çıx, çıx, çıx!
Kəhər atı min çıx!
Oğlun qayadan uçdu,
Qızın təndirə düşdü
Keçəl qızı qoy evdə,
Saçlı qızı götür, çıx!..

Azərbaycan folklorunda Ülkər ulduzu ilə bağlı təsvir olunan əfsanədə gözətçinin göydə ulduz görməsi, onu Ülkər ulduzu hesab edərək karvanı oyatması təsvir olunur. Karvan xeyli gedir. Amma səhər açılmır. Başlayan boran karvanı məhv edir. Bunu Yalançı Ülkər də adlandırmışlar. Ülkər "Karvanqıran" adı ilə də tanınır.

Dağın inamlar sistemində daşıdığı sakrallıq mifik mətnlərdə mükəmməl şəkildə əks olunmuşdur. Qədim türklərin əksər hissəsinin Altay, Bodin-İnli, Saqcaq, Ağ qaya, Alaş və başqa dağlara inamları olmuş, onlar həmçinin "Kitabi-Dədə Qorqud" dastanında Qazlı dağı, Gökçe dağ, Ala dağ, Qara dağ, Qaracux dağlarına etiqad etmişlər. "Kitabi-Dədə Qorqud" dastanında oğuzların dağdan və onun ruhundan güc almaları ilə bağlı olan mifik elementlər daha qabarıq şəkildə öz əksini tapır:

Qarlı qara tağların yıqılmasun!

"Dədə Qorqud" eposunda Basatın soylamasında ağacın mifoloji ana statusu və ilkin stixiya kimi oğuzların düşüncəsindəki yeri müəyyənləşir:

Anam adın sorar olsan, – Qaba Ağac!
Atam adın deyərsən, – Qağan Aslan!
Mənim adım sorarsan, – Aruz oğlu Basatdır.

"Koroğlu" dastanında Qoşabulağın coşub-daşması, uca dağ zirvəsində yerləşməsi (dağ kultu ilə bağlılığı), həm də böyük və tənha ağac ilə birgə təsvirini tapması dastanda ağac kultunu formalaşdıran elementlərdir. Dastanda Qoşabulağı qoynuna alan ağac ölməzlik simvolu kimi görünür. Əcdadlarımız ağacların yarpaqlarının tökülməsini, baharda yenidən yaşıllaşmasını müşahidə etdikdə onların ölməz olduqlarını düşünürdü. Suyun həyat, ölümsüzlük, gənclik bəxş etməsi ilə bağlı inamlar Azərbaycan miflərində, nağıl və dastanlarında rəngarəng şəkillərdə əksini tapmışdır. "Koroğlu" dastanında Qoşabulaq sakral aləmin rəmzi olaraq magik keyfiyyətə malikdir. Qoşabulağın köpüyü xəstəliyi sağaltmaq, insana həyat vermək qüdrətini yaşadır.

"Əsli-Kərəm" dastanında da su kultunun sakral mahiyyəti, ilkin başlanğıc olması təsvir edilmişdir. Kərəmin su ilə xəbərləşməsi suyun kult kimi təsəvvürlərdəki obrazını qabardır, semantik laylarını büruzə verir. Dastanda Kərəm çaya üzünü tutub deyir:

Abi-həyat kimi daim axarsan,
Haqqın camalına hərdən baxarsan,
Dolana-dolana evlər yıxarsan,
Mənim Əslim buralardan keçdimı?

Elə bayatılar vardır ki, onlarda su stixiyası ilə bağlı su iyesi, su xanı obrazının izinə düşmək mümkündür:

Araz, Araz, xan Araz,
Gəl sənə qurban, Araz.
Ürəyimin dərdinin
Məlhəmisən sən Araz.

Burada qədim su kultu ilə bağlı üç məqam var:

Birincisi, Arazın "xan" adlandırılması. Professor M.Seyidov yazır ki, "türkdilli xalqlar su ilahəsini "Suxanı" (suyun xanı), "Suiyesi" (suyun sahibi), "Yayıkxan", "Qaran" adlandıraraq ona tapınmışlar".

İkincisi, lirik qəhrəmanın özünü Araza qurban verməsi. Bu da suya qurbanvermənin izi kimi düşünülə bilər. Nağıllarda da suyun qabağını kəsən əjdahaya qurban verilir.

Üçüncüsü, Su xanı – Araz xandan istək istənilməsi, dərdin suya deyilməsi və ondan şəfa dilənilməsi.

"Kitabi-Dədə Qorqud" dastanında:

Ordumun xəbərin bilürmisin, degil mana!
Qara başım qurban olsun, qurdum, sana!

Boz Qurda ünvanlanmış bu müraciət Qazan xanın öz əcdadına bütün varlığı ilə tapındığını, Boz Qurdu bəlalardan qurtaran güc olaraq gördüyünü təsdiqləyir.

Qazanın eposda "Azvay qurd əniyi erkəgində bir köküm var" deməsi də onun kökünün ilkin əcdada – Boz Qurda bağlandığına aid işarədir. M.Seyidov qeyd edir ki, Qazan xan "vaxtilə əsatir aləminin "vətəndaşı" olduğuna görə onun kökü zoomorfik totemlərlə, o cümlədən qurdla bağlıdır".

Azərbaycan nağıllarında ilanın ağac, su, dağ, od, Günəş və digər kultlarla bağlılığı geniş təsvir dairəsində görünür. Bu sintez axarında ilan kultuna dayanan obrazların (Gülağa, Ovçu Pirim, Taxta Qılınc, Əhməd) sakral mənşəyi, əcdadlarının ruhunu təmsil etmələri görünür ki, bu da əski motivlərin transformasiya variantlarını aydınlaşdırır. "Gülağanın nağılı", "Fatma gəldi ilan qaç", "Çil madyan", "Taxta qılınc", "Ovçu Pirim və ilanlar padşahı" kimi Azərbaycan nağılları ilan kultunun səciyyəvi xüsusiyyətlərini göstərməklə yanaşı, ilan kultu ilə bağlı obrazların inisiasiya aktındakı iştirakını da bəlli edir. Bu akt zamanı ilanın müxtəlif funksiyaları üzə çıxmış olur. Həmin funksiyalar əsasən aşağıdakılardır:

1. İlan insana dil bilmək qüdrəti bəxş edir;
2. İlan insana sehr yaratmaq gücü verir;
3. İlan insana çevrilə bilir.

At kultu ilə bağlı xalq inamları folklor mətnlərində müxtəlif məzmunlarda əksini tapmışdır. Azərbaycan türklərinin inamlarına görə, at ilk növbədə arzuya, murada yetmək vasitəsidir. Atın uğur müjdəçisi olması, insan məskənlərini bəd ruhlardan qoruması, gənc sevgililərin bir-birlərinə qovuşmaqda yardımçı olması və digər bu kimi funksiyaları çeşidli folklor mətnlərində təzahürünü tapmışdır ki, bu da at kultunun mahiyyətini açıqlamağa imkan verən faktlardandır.

Qazlıq at, Badöyat, Ağbozat, Ərəb at, Al ayğır, Yelisi qara Qazlıq at, Qaraayğır, Yüyürək at, Toğlu başlı Turu ayğır, Göy bədöysün at, Ağ bədöysün at və s. Bu adlar altında kodlaşmış hər bir atın Oğuz igidləri içərisində öz sahibi vardır.

1. At dünyanın zoomodeli olmaqla ilkin kosmoqoniyanın əsas obyektlərindən birini təşkil edir.
2. At kosmoqoniya (yaradılış) obrazı kimi eyni zamanda totem əcdad funksiyasını yerinə yetirmişdir.
3. Atın kosmoqonik dünya modeli və totem əcdad xassələri onu sakral qurban kimi kultlaşdırmışdır.

Keyiklərin, yaxud maralların qulağının dəlik olması onların qeyrı-adiliyı ilə şərtlənə bilər. Qulağı dəlik keyik-maralın ov hamisi kimi statusu var, o, təbiətin gücünü ifadə edən sakral varlıqdır.

Professor M.Təhmasib Simurqun ikinci adı kimi "Zümrüd"ü göstərir və onu ayla əlaqələndirərək yazır: "Simürğün bizdə ikinci adı olan "zümrüd" də bu sözün "söhrab-zöhrab", "almaz-almas" kəlmələrində olduğu kimi, birinci səsinin "z"ya, son səsinin isə "d"ya çevrilmiş şəklindən ibarətdir. Beləliklə, simürğün doğrudan da, ayla əlaqədar əsatiri bir surət olması aydın olur».

Humay quşunun türk xalqlarının çeşidli inamlarında yaşayan qeyd edilən adları və özəllikləri onu əski əcdad və qoruyucu ruh kimi də göstərir. "Humayın balalarını vurmağın yasaq olunmağı da bununla bağlıdır».

Professor S.Rzasoy 24 onqon quşu dünya modeli kimi Oğuz kosmoloji modelinin zooparadiqması hesab etmişdir. Alim bu barədə apardığı tədqiqatında belə bir nəticəyə gəlmişdir: "24 oğuz tayfasının əcdadı Oğuz xandır. 24 onqon quş da öz səviyyəsində 24 tayfanın zooəcdadıdır.

Azərbaycan folklorunda təbiət kultları ilə bağlı inamların öyrənilməsi perspektiv imkanlara malik problemdir.